Funded by the European Union

Aİ-nin Şərq Tərəfdaşlığı ölkələrində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi



İcra müddəti: 01.02.2024 - 31.12.2026

ŞT ölkələri:
Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Ümumi büdcə: € 3 500 000

İcraçı təşkilat(lar):
Open Government Partnership (OGP)

Sosial media hesablarına keçidlər:
linkedin.com/company/12672246/, https://x.com/OECD_BizFin

Internet səhifəsi: oecd.org/en/about/projects/acns-collaboration-with-the-eu.html

Layihənin təsviri:

Uğurlu antikorrusiya siyasəti, eləcə də yüksəksəviyyəli və mürəkkəb korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə dayanıqlı dövlətlərin və cəmiyyətlərin qurulmasıda rol oynayan həlledici amillərdir. Bu siyasətlər həmçinin Şərq Tərəfdaşlığının (“ŞT” və ya “Şərq Tərəfdaşlığı”) 2020-ci ildən sonrakı dövrü əhatə edən proqramına daxildir.
“Aİ-nin Şərq Tərəfdaşlığı ölkələrində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi” fəaliyyəti (bundan sonra – “Fəaliyyət”) hədəf antikorrusiya islahatları vasitəsilə ŞT ölkələrinin qanunun aliliyinə yönəlmiş təhdidlərin qarşısının alınması və onlarla mübarizə sahəsindəki səylərini dəstəkləmək məqsədi daşıyır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən 2021-2023-cü illərdə icra olunmuş “Aİ-nin Şərq Tərəfdaşlığında Dürüstlük naminə” fəaliyyətinə (“Aİ Dürüstlük naminə Proqramı”) əsaslanan bu Fəaliyyət regional dialoq, vətəndaş cəmiyyətinin cəlb olunması ilə gücləndirilmiş monitorinq, habelə hüquq-mühafizə və biznesdə dürüstlük məsələlərinə dair dərindən təhlil və təcrübə mübadiləsi vasitəsilə sübutlara əsaslanan antikorrusiya siyasətinin icrasını stimullaşdıracaq, təsisatları gücləndirəcək və yüksək səviyyəli/mürəkkəb korrupsiya hallarına diqqət yetirməklə qanunvericiliyin tətbiqi tədbirlərini sürətləndirəcək.
Açıq Hökumət Tərəfdaşlığı (OGP) ilə əlaqə şəkildə həyata keçirilən bu Fəaliyyət həmçinin bu ölkələrin hökumət və vətəndaş cəmiyyətindəki antikorrusiya islahatçılarının hüquq və imkanlarını artırmağı və onların islahatların irəliləyişində “aparıcı qüvvə” kimi çıxış etmələrinə kömək etməyi hədəfləyir.

Gözlənilən nəticələr:

Məqsəd 1

Nümunəvi nəticələr
Fəaliyyətlər aşağıdakı gözlənilən təsir və nəticəyə töhfə verəcək:
• Şərq Tərəfdaşlığı ölkələri antikorrusiya siyasəti, korrupsiyanın qarşısının alınması və yüksəksəviyyəli korrupsiyaya xüsusi diqqət yetirməklə, korrupsiyaya görə cinayət məsuliyyətinin tətbiqi sahəsində islahatları sürətləndirir (təsir)
• Antikorrusiya qurumları və digər müvafiq tərəflər antikorrusiya siyasətini hazırlamaq və icra etmək üçün sübutlara əsaslanan metodlardan istifadə edirlər (nəticə)
Nümunəvi göstəricilər
• İllik ACN Plenar iclasları (monitorinq və Rəhbər Qrupun iclasları daxil olmaqla).
• İstanbul Antikorrupsiya Fəaliyyət Planının V monitorinq mərhələsinin hesabatları.
• Seçilmiş fəaliyyət sahələri üzrə regional əsas səmərəlilik göstəriciləri.
• Antikorrusiya üzrə icmal hesabatları.
Məqsəd 2
Nümunəvi nəticələr
Fəaliyyətlər aşağıdakı gözlənilən nəticəyə töhfə verəcək:
• ŞT ölkələrinin hüquq-mühafizə orqanları yüksəksəviyyəli korrupsiya hallarının təhqiqatı və cinayət təqibini təkmilləşdirir
Nümunəvi göstəricilər
• ŞT və seçilmiş Aİ-yə üzv dövlətlərin iştirakı ilə hüquq-mühafizə orqanları şəbəkəsinin illik iclasları.